## Kirman Rustemli

### Yazıram

Şairəm, bənzədib hər sözü zərə
Söz içindən söz seçirəm cürə cürə.
Söz də var ki, bənzədirəm lələ, dürə
Baş ayaq, ayağı baş tutub qazıran
Hərdən aşikar, gah da pünhan yazıram.

Pıqqıldayan qaynar qazan bişməz hələ
Kim qurubdur iqbalıma cələ, tələ?
Şeytan deyir beləsini tutub bələ
Əldə qələm, gəl də bax, qan qan yazıram
Hərdən aşikar, gah da pünhan yazıram.

Peysər yoğun, özgə malı talan, müftə
Hər gün yağlı ətdən çəkib yeyir küftə
Əl gətirsə axşam, səhər alar siftə
Movzum bəlli, alıb gözə, xan yazıram
Hərdən aşikar, gah da pünhan yazıram..

Gərək deyil üz gözümə tutam ələk
Mən də buyam, gəlməyirəm sənə kələk
Yurd dağılıb, millət olub ələk vələk
Bəs beləsə sanma ki, ad, şan  yazıram
Hərdən aşikar, gah da pünhan yazıram.